

Daimi oxucumuz Cavid Novruzov Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan əmisi Zeynalabdin Novruzoğlunun şeirlərini təqdim edib. Məlum olur ki, Zeynalabdin müəllim Şərur rayonunun Xok kəndində (indi Kəngərlinin tərkibindədir) dünyaya göz açıb. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin tarix fakültəsini bitirib. "Zaman yaşatmağa qadir deyilsə" (1998), "Əldə gül, dildə tikan" (2009), "Yazdım-yazmadım" (2014) şeir kitablarının müəllifidir. 2011-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Bizim şanlı ordumuz**

Gül kolu, gül dəstəsi,
Hər biri gül qönçəsi.
Dərələrdə nə gəzir,
Məskəni dağ zirvəsi,
Bizim şanlı ordumuz.

Çinardı – kökü dərin,
Qartalıdı səngərin.
Gözü kimi qoruyur,
Sipəridi Vətənin,
Bizim şanlı ordumuz.

Dəniz təki kükrəyər,
Bənd-bərəni çeynəyər.
Qoşunları dağıdar,
Düşmən aman diləyər,
Bizim şanlı ordumuz.

Atəşdir, yansa sönməz,
Hücumda geri dönməz.
Çörəyini bölər o,
Torpağını böldürməz,
Bizim şanlı ordumuz.

Danışdıq, daha bəsdi,
Səbrimiz daşı kəsdi.
Belə bir hikmət də var,
Haq gücsüzsə, şikəstdi...
Bizim şanlı ordumuz.

Güc görsə, hiylə qaçar,
Hiyləgər qalar naçar.
40-cı otaq ki var,
Ona düşər hər açar,
Bizim şanlı ordumuz.

Şuşanın gözü yolda,
Sözünü de bu yolda.
Gözləməkdən yorulduq,
Bir müjdə ver sonunda,
Bizim şanlı ordumuz.

Yol varsa Xankəndinə,
Yol kəsənin həddi nə?
Yol kəsən namərd olar,
Bayrağı sanc köksünə,
Bizim şanlı ordumuz.

Bu dava qəti dava,
Qoyma qalsın sabaha.
Şəhidlik uca addır,
Çox yaxındır Allaha...
Bizim şanlı ordumuz.

İmtahan verməlisən,
Kursu bitirməlisən.
Ya bu yolda ölməli,
Ya yurda dönməlisən!
Bizim şanlı ordumuz,
Bizim şanlı ordumuz! ❖